# ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT

*(Əvvəli ötən saylarımızda)*

Hikmətli sözlər, dəyərli kəlamlar, aforizimlər, atalar sözləri və məsəllər nitqin bəzəyidir. Natiqlər yeri gəldikcə nitqlərinin, çıxışlarının təsirini artırmaqçün, fikirlərini daha aydın çatdırmaq üçün bu ifadələrdən yerli-yerində istifadə etməyə çalışırlar. Onu da qeyd edək ki, atalar sözləri və məsəllər, hikmətli kəlamlar xalqın mənəvi sərvətidir. Demək, ayrı-ayrı sənətkarlara məxsus olan aforizimlər, hikmətli kəlamlar da mənsub olduqları xalqın dünyagörüşünü, mədəni və mənəvi yüksəlişini göstərir. Biz ruhumuzu oxşayan, düşüncəmizi cilalayan hikmətli kəlamları eşidəndə istər-istəməz müəllifinə xüsusi bir hüsn-rəğbət göstəririk.

Hikmət Mahmudun insanların ruhuna sirayət edən "qanadlı" ifadələri, ruhu oxşayan kəlamları ilə söhbətini, çıxışlarını bəzəyən sənətkar olduğunu artıq qeyd etmişik, ona görə də onun dəyərli kələmlərının şərhini davam etdirməyi "qanadlı" söz və ifadə sevdalılarına çatdırmağı özümüzə borc bildik.

**19. Dostu tanımaq istəyirsənsə, onu dar məqamda sına.**

Əlbəttə, insan iradəsi həmişə və hər yerdə özünü diktə etməyi bacarmalıdır. Hər çətinliyin qarşısında əyilmək, zamanın gətirdiyi küləklərlə əqidəsini, təbiətini tez-tez dəyişmək şəxsiyyətin dəyərini heçə endirir. İnsanlar belələrinə qarşı ikrahla baxır. Onlara saygı göstərmirlər. Nə deməyindən, nə danışmağından asılı olmayaraq, nitqlərinin, fikirlərinin arxasında şəxsiyyət bütövlüyü dayanmadığı üçün insanların düşüncəsində heç bir iz buraxmırlar. Amma, əqidəsində möhkəm dayanıqlı olan şəxsin bütövlüyü cəmiyyət içərisində hörmət qaynağı hesab olunur. Belələrinin dostluğu da sarsılmazdır, əqidə bütövlüyü olan insanın dostluğu da qürur mənbəyidir. Hikmət Mahmud yaxşı bilir ki, dar məqamda, çətin anlarda insanın əsl təbiəti üzə çıxır. Onun bütövlüyü sədaqətini göstərir, yaxud, yaramazlığı çəkib xəyanət girdabına salır. Bizə elə gəlir ki, hər hansı bir şəxsi məxsusi olaraq test sınağına çəkməyə ehtiyac yoxdur. Çünki həyat özü hər kəsi vaxtında, məqamında yoxlama testindən keçirir. Bu həyat sınağından keçə bilməyən dostluğu da zaman küləklərinin qarşısında sovrulub gedir.

**20. Kara girişmə, lala ilişmə başına bəla açarsan.**

Mənən sağlam və saf insan kimsənin fiziki şikəstliyini lağ obyektinə çevirməyə haqqı yoxdur. İnsanın daxili zənginliyi, sağlam təbiəti onun mənəvi mühiti ilə bağlıdır. Müəyyən fiziki qüsurları olan şəxs, əgər özünün imkanlarını qədərincə təqdim edə bilmirsə, bu, onun günahı deyil, bu artıq tale, bəxt işidir. Əgər sən özün təbiət etibarı ilə sağlam və safsansa, onda fiziki məhdudiyyətləri olan hər hansı bir şəxsə yardımçı olmalısan, ona imkanın daxilində dayaq durmalısan, ehtiyac varsa, düzgün yol göstərməlisən. Əks təqdirdə özün cəmiyyətin qınaq obyektinə çevrilə bilərsən.

**21. Qanmazı qandırsan, nadanı ansan müdrik insansan.**

Xalq arasında bir məsəl var. Deyərlər ki, "qanan qanmaza borcludur". Düşünmək olar ki, xalq bu ifadə ilə qanmazın, nadanın yerini çox dəqiq göstərib. Hər kəsin həyatdakı yeri onun ən mürəkkəb məsələləri, həyat həqiqətlərini bilmək, anlamaq, başa düşmək dərəcəsi ilə ölçülür. Sən, əgər hər hansı bir qanmazı qandıra bilmək imkanına sahibsənsə, nadanın nadanlığını bilib, anlayırsansa, demək onlardan çox yuxarıdasan.

Hikmət Mahmud təsadüfi olaraq qanmazı qandıra bilən adamı müdrik adlandırmır. O yaxşı bilir ki, bir qanmazı qandıra bilmək insandan nə qədər mənəvi, hətta fiziki enerji tələb edir.

**22. Öz dövrü ilə ayaqlaşa bilən kəs ən xoşbəxt insandır.**

Belə bir fikir var ki, dövrü, zamanı, yaşadığı mühitin mənzərəsini dəyişə bilən şəxş çox böyük mənəvi potensiala malikdir. Əlbəttə, hər kəsin dövrün mənzərəsini dəyişməyə gücü



çatmaz. Amma onu da unutmayaq ki, hər kəsin öz dövrü ilə ayaqlaşması da çətindir. Bunun üçün dövrün tələblərinə cavab verən maddi və mənəvi ehtiyatların olmalıdır. Əks təqdirdə dövran səni aciz duruma salar, səni mənən əzər. Amma uzaqgörənliyinlə, həyatın zərbələrinə davam gətirmək gücünlə dövrana müvazi ola bilsən, onda özünü xoşbəxt sanarsan. Bu cür "qanadlı" ifadələrlə Hikmət Mahmud, əslində, insanları mənən silahlandırır. Onlara güc və inam bəxş edir. Hər kəs bu ifadənin məzmununa vara biləndə öz imkanlarını götür-qoy edə bilir, yaxud düzgün həyat yolu, mübarizə yolu seçə bilir.

**23. Ağılsız adama öyüd-nəsihət vermək qozu quru divara vurmaq kimidir.**

Sənətkar ağıl imkanlarından bəhrələnə bilməyən, düşüncə imkanlarını genişləndirməyi bacarmayan hər kəsi ağılsız hesab edir. Ayrı-ayrı məqamlarda deyirəm ki, kasıb adamın sərvəti onun ağıl, düşüncə imkanıdır. Kasıb adam öz ağlından, düşüncəsindən bəhrələnməklə çıxış yolu tapar. Amma ağılı ağılsızlığı ilə qəbul etməyən, mənən şikəst olan şəxs heç bir ağıllı məsləhəti qəbul etməz, öz iddiası ilə, məhdud düşüncəsi ilə qeyri hər kəsi günahlandırmağa çalışar. Belələri üçün xalq arasında tutarlı bir məsəl də yarlıqdır: "Eşşək zəfəranın nə olduğunu hardan bilsin". Beləliklə, Hikmət Mahmud özünəxas improvizə ilə ağılsız adamın düşüncəsini quru divara bənzədir. Ağıllı sözü isə qoza timsal tutur. Yəni qozu divara vur, qoz sınıb töküləcək.

**24. Bivec dost yaxşı gündə bitəndir, yaman gündə itən.**

Əslində, bu hikmət sənətkar tərəfindən bir qədər başqa formada işlənib. Yəni dostu dar məqamda sınamaq məsəli ilə bu mənanı müəyyən qədər ifadə edə bilib. Amma hər halda bu deyimin özü də formaca çox orjinaldır. Bitmək və itmək sözlərinin qafiyə ahənginin təsiri ilə fikir yaddaşda daha asanlıqla qalır. "Bivec" sözü yəni "vecsiz" anlamındadı, yəni bir işə faydası dəyməyən, bir kimsəyə xeyiri dəyməyən şəxsin dostluğu yaxşı gün üçündür. Belələri yaxşı gündə göz qabağında bitər, göz önünüdən çəkilməz. Amma bir çətinlik məqamı gələn kimi yoxa çıxar, yəni itər. Ona görə də sənətkar belələrini vecsiz adlandırır, yaman gündə itən hesab edir.

**25. Ata nəsihəti övlada ən qiymətli həyat dərsidir.**

Deyəsən, bir dəfə işlətmişik: "Oğul sözlərimə yaxşı qulaq as, ata nəsihəti faydasız olmaz". Nizaminin oğlu Məhəmmədə dediyi sözlər az qala 900 ilə yaxındır ki, hər kəsi düşündürür. Və özünün təsir gücünü bu gün də saxlayır. Şair Hikmət Mahmud isə həmin yanaşmanı özünəxas biçimdə dövrünün insanlarına yenidən çatdırır. Və əlbəttə, yeni məna, yeni fikir rənglərinin özünəxas çalarları ilə... Çünki ata artıq kifayət qədər ömür yaşayıb. Həyat dərsi alıb. Aldığı həyat dərsini, şübhəsiz, övladına da vermək istəyər. Ata istəyər ki, övladı daha üstün, daha yaxşı yaşasın. Ona görə də şair atanın verdiyi nəsihəti ən qiymətli həyat dərsi hesab edir. Şübhəsiz, ata-övlad münasibətinə bu cür yanaşma təsirsiz qalmır. Hikmət Mahmudun bu kəlamını eşidən hər kəs özü üçün nəticə çıxarır. Ata öz övladına daha üstün, daha dəyərli nəsihətlər vermək, övlad atanı daha diqqətlə dinləmək istəyər. Əslində, fikir və düşüncə adamlarının cəmiyyətə aşılamaq istədiyi də elə budur: qoy hər kəs həyat həqiqətini vaxtında dərk etsin, həyat dərsini vaxtında alsın.

**26. Kasıba hörmət etmək özünə qiymət vermək kimidir.**

Şəxsiyyətin dəyəri onun varı və dövləti ilə ölçülməz, maddi imkanları ilə dəyərlənməz. Böyük Səməd Vurğun deyirdi ki: "Kimdə zəngin bir könül varsa, o, dünyanın ən varlı adamıdır". Demək, maddi imkanlarına güvənib kasıb olan bir şəxsə yuxarıdan aşağı baxmaq həmin şəxsin mənəvi kasıblığından xəbər verər. Ancaq maddi cəhətdən imkanları məhdud olan hər hansı bir şəxsə aşağılamaq niyyəti ilə yanaşmaq kimsəyə baş ucalığı gətirməz. Əksinə, belə vəziyyətdə kənardan müşahidə edən hər kəsin ikrah obyekti olar. Ancaq maddi imkanlarına yardımçı olmaqla ona maddi böhrandan çıxmaq yolu göstərməklə cəmiyyətin hörmət və ehtiramını qazanmaq olar. Şair Hikmət Mahmud doğru deyir ki, maddi imkanları aşağı olan hər bir şəxsə hörmətlə yanaşmaq, ehtiramla yanaşmaq elə insanın özünə hörmət və ehtiramı deməkdir. Görünür, insanın özünə hörmət və ehtiramı olmayan mühitdə cəmiyyətin harmoniyasınqan danışmağın da bir əhəmiyyəti yoxdur. Bəli, bütün mənəvi nizamların əsası şəxsin, insanın təbiəti, münasibəti ilə bağlıdır.

**27. Əgər istəyirsən başın salamat olsun, onda üç varlıqdan: - dəlidən, özündən razı adamdan, bir də bədəsil arvaddan uzaq ol.**

Müəllif dəlinin ruhi xəstəliyini əsas götürərək onunla ehtiyatla davranmağın vacibliyin diqqətə çəkir. Həqiqətən, ruhi xəstə olan şəxsin meyarı, ölçüsü olmadığından yanaşma zamanı hər kəs ehtiyatlı davranmalıdır. Amma Hikmət bunun arxasınca mənən xəstə olan təbiət etibarı ilə öz xəstəliyini dərk etməyən özündən razı şəxsi diqqətə çəkir. Belələrindən də uzaq olmağı vacib hesab edir. Özündən razı olan şəxs ətrafında yabançı və yaltaqlıq mühiti yaradar. O, imkanlarına güvənərək, insanları gözüqıpıq görmək istəyər. Özündən razılığın, özündən müştəbehliyin cəmiyyət üçün necə bəla olduğunu şair təqdim etdiyi üç obrazla müqayisədə uğurla verir. Belə ki, ruhən xəstə olan, meyarı - ölçüsü olmayan şəxslə mənəviyyatı şərə, böhtana xidmət edənləri, şairin bədəsil adlandırdığı qadınla müqayisədə özündən razıların iyrənc təbiəti daha qabarıq görünür. Çünki şair bədəsil adlandırdığı qadın obrazında da yaramazlığın əsil mahiyyətini aşkarlayır. Beləliklə, şair başın salamatlığını bu üç varlıqdan kənarda olmaqla qorumaq mümkündür, qənaətində durur.

Dəyərli fikir, söz, düşüncə bütün hallarda müəyyən mənəvi mühitin mənzərəsini göstərir. Şair H.Mahmudun kifayət qədər zəngin yaradıcılıq yolu var. Onun şeirlərinin mahiyyətinə vardıqca, yaradıcılığının poetik məzmunu ilə yaxından tanış olduqca biz kifayət qədər daxili aləmi zəngin olan ziyalının öz dövrünə, cəmiyyətə münasibətini görürük və bu münasibət ümumiləşmiş və cilalanmış aforistik mahiyyətdə üzə çıxır.

Sənətkarın kimliyini anlamaq, onun cəmiyyətə münasibət gücünü görmək, başlıcası, cəmiyyətə təsir gücünü görmək üçün fikirlərinin vəzn, çəki imkanlarını görmək və düzgün dəyərləndirmək lazımdır.

Əgər bir oxucu kimi, hər hansı bir sənətkarın sözü bizim varlığımızda, düşüncəmizdə, mənəvi dünyamızda əks-səda vermirsə, demək, o sənətkarın sözü heç gələcəyin insanlarında da müəyyən təəssürat doğurmayacaq, müəyyən əhval-ruhiyyəyə səbəb olmayacaq. Amma şair H.Mahmudun aforizm tipli sözləri, misraları - bir qədər də dəqiq ifadə etsək, hikmətli kəlamları bu günün oxucusu kimi bizim yaddaşımızda özünə yer eləyib mənəviyyatımıza təsir etmək gücündədirsə, demək, onun sözləri yaşarı olacaq, gələcəyin insanlarına da təsir etmək gücündə olacaq.

Bu gün sənətkarın aforizm səviyyəsində olan atalar sözü mənzilesində olan ifadələrini, kəlamlarını təhlil edərkən düşüncə imkanlarımızın necə təlatümə gəldiyni, hərəkətə gəldiyini hiss edirik... Bu, o deməkdir ki, sənətkar cəmiyyətin nəbzi üstünə dəqiqliklə, həssaslıqla toxuna bilir. Bu, o deməkdir ki, sənətkar insanlığın nəbzini dəqiq tutur.

H.Mahmud yaşadığı dövrün, zamanın mühitilə həmahəng nəfəs alır. O, bu mühiti bütün aydınlığı və hətta bütün təzadları, gərginlikləri, ziddiyyətlərilə görə bilir. Əslində, onun çox qiymətli yaradıcılıq sahəsi olan hikmətli kəlamları bu görmənin, bu müşahidənin bəhrəsidir.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***